# Tütün əkini sahələri genişləndirilib

***Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, ölkəmizdə ixracyönümlü və ənənəvi sahələrin dirçəldilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində rayonumuzda tütünçülüyün inkişaf etdirilməsi qarşıya məqsəd qoyulub.***



10 illik fasilədən sonra artıq 3-cü ildir Qəbələdə tütün əkilir. Ötən il rayonda 70 hektar sahədə tütün əkən fermerlər dövlət dəstəyindən ruhlanaraq bu il əkin sahələrini daha da genişləndiriblər. Tütün rayonun Mamaylı, Şamlı, Kiçik Əmili və Zirik kəndlərində əkilib. Fermerlər bu il tütün sahələrini 75 hektara çatdırıblar.

Məhsul istehsalçıları əkin zamanı yerli şəraitə uyğunlaşdırılmış "İmmunium-558" və "Berley" sortundan olan tütün növünə üstünlük verirlər. Bu növ tütün bitkilərinə düzgün aqrotexniki qulluq edilərsə, hər hektardan yaşıl kütlə halında 35-40 ton, quru halda isə 3,5-4 ton məhsul götürmək mümkündür.

Qeyd edək ki, rayonda tütünçülük sahəsinə 4 fermer tərəfindən 160-dan çox yerli sakin cəlb olunub. Bu da kənd sakinlərinin məşğulluğunun təmin edilməsinə, dolanışıq şəraitinin yaxşılaşmasına müsbət təsir edir.

Görülən işlərin nəticəsində ötən il Qəbələdə 70 hektar tütün sahəsindən 115 ton məhsul tədarük olunub.

**Səhrab UMUYEV.**
**"Qəbələ"**

*Mütəxəssis məsləhəti*

# Arıçılıqda məhsuldarlığın artırılması

***Ölkəmizdə arıçılığın yem bazasını - aran, dağətəyi və dağlıq ərazilərin bitki örtüyü təşkil edir. Respublikamızın təbii-coğrafi və iqlim şəraitini, eyni zamanda, bitki örtüyünün müxtəlifliyini nəzərə alaraq, arı ailələrinin normal inkişafını təmin etmək üçün onların mövsüm ərzində azı beş dəfə köçürülməsini təmin etmək lazımdır.***

Fevral ayının ikinci ongünlüyündə qışlamadan çıxmış arı ailələrinin birinci köçürülməsi təşkil edilir. Bu zaman arı ailələri dağətəyi bölgələrdən aran bölgələrinə köçürülür. Bu dövrdə aran bölgələrində hava şəraitinin başqa bölgələrə nisbətən isti keçməsi arı ailələrinin oyanmasına və ana arıların yuva daxilində daha erkən yumurta qoymasına səbəb olur. Arı ailələri bu zaman yuva daxilində ehtiyat baldan və çiçək tozundan istifadə edərək inkişafa başlayır. Yuva daxilində şanlarda balın möhürünün arıçı tərəfindən az miqdarda açılması arıların inkişafa başlamasına güclü təsir göstərir. Möhürü açılmış balın iyi arıları özünə cəlb edir. Arıların balla qidalanması belə ailələrin daha tez oyanmasına və inkişafa erkən başlamasına səbəb olur. Arı ailələri mart ayının ikinci ongünlüyünə qədər yuva daxili qidanın hesabına inkişaf edərək keyfiyyətcə yeni, cavan nəsillə əvəzlənir.

Mayın 15-nə kimi aran bölgələrində işləyən arı ailələri yenidən dağətəyi bölgələrə aparmaqla onların ikinci köçürülməsi təşkil edilir.

Arı ailələrinin əsasən bitkilərin nektar əmələgətirmə dövründə dağətəyi bölgələrə və ilin ən isti aylarında isə (iyulda) dağlıq bölgələrə aparmaqla üçüncü köçürülməsi həyata keçirilir.

Dördüncü köçürülmə avqust ayına təsadüf edir və arı ailələri yenidən aran bölgələrinə qaytarılır.





Arıların son işləmə dövrü avqust və sentyabr aylarıdır. Bu dövrdə arılar nektar və çiçək tozunu pambıqdan, yoncadan, üzümdən və payız efemerlərindən toplayır. Oktyabr ayının əvvəlindən arı ailələrinin yuvası qış üçün yığılır və respublikanın dağətəyi bölgələrinə aparmaqla, onların sonuncu - beşinci köçürülməsi təşkil edilir. Arıçılar arı ailələrini yerli şəraitdən asılı olaraq, əsas nektar əmələgəlmə dövründə bir dəfə əvəzinə, iki, ya üç dəfə köçürə bilərlər.

Arı ailələri vaxtında, planlı surətdə və şüurlu qaydada köçürülməlidir. Ona görə də arıçı öz bölgəsinin hər bir hektarında olan bitki örtüyündəki nektarın nə qədər olmasını təxmini bilməlidir. Bal arılarının əlverişli uçuş diametri 3 kilometrdir. Bu o deməkdir ki, arılar pətəyin olduğu yerdən bütün istiqamətlərə tərəf 3 kilometr uzaqlıqdakı bitkilərdən nektar toplaya bilər.

Bal məhsuldarlığının artırılmasında birinci əsas amil arı ailələrinin nektar əmələgəlmə dövrünə qədər inkişafının başa çatması və onun gücünün standarta uyğun gəlməsidir. Arı ailələri payız dövründə qışlamağa qoyulduqda (noyabr ayının əvvəlində) 2,5 kiloqram və ya 25 min arı, qışlamadan çıxdıqdan sonra (fevral ayının ikinci ongünlüyündə) 2 kiloqram və ya 20 min arı, əsas nektar əmələgəlmə dövründə isə (iyunun əvvəlində) 3-3,5 kiloqram və ya 30-35 min arı olduqda həmin dövrdə ailə üçün standart güc hesab edilir. Mövcud standartlara uyğun gələn belə ailələrdən əlverişli hava şəraitində 50-60 kiloqram bal istehsal etmək və 25-30 kiloqram təmiz bal süzmək mümkündür.

Bal məhsuldarlığının artırılmasının ikinci amili arı ailələrinin planlı surətdə, mövsüm dövründə köçürülməsinin optimal təşkilidir. Köçürülmə işinin düzgün təşkil edilməsi, ilk növbədə, arı ailələrinin standart gücdə inkişaf etməsinə səbəb olur. Arıçılıqla məşğul olan fermerlər arı ailələrinin yonca, xaşa, şabdar bitkiləri olan əkin sahələrinin, təbii biçənəklərin, çökə və akasiya meşəliklərinin yaxınlığına köçürülməsinə üstünlük verməlidirlər.

# Yeni fındıq bağları salınıb

***Prezident İlham Əliyevin ölkəmizdə ixracyönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması, o cümlədən fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı göstərişindən sonra Qəbələ rayonunda əhali tərəfindən yeni fındıq bağlarının salınmasına böyük maraq göstərilir.***



Artıq bir ildir ki, rayonda kənd təsərrüfatının ixrac potensialı yüksək olan fındıqçılıq sahəsinin inkişaf etdirilməsi üçün yeni bağlar salınır. Plana uyğun olaraq, rayonda 2 min hektar sahədə yeni fındıq bağının salınması nəzərdə tutulub.

Rayon kənd təsərrüfatı idarəsindən müxbirimizə bildiriblər ki, yaz mövsümündə Nic, Bum qəsəbələrinin, Mirzəbəyli, Zərgərli, Tikanlı, Mıxlıqovaq, Solquca kəndlərinin və digər yaşayış məntəqələrinin sakinləri istifadə etdikləri və bələdiyyə mülkiyyətində olan boş torpaq sahələrində fındıq tingləri əkiblər. Ümumilikdə, rayonda yaz aylarında 120 hektar, son bir ildə isə 1337 hektar sahədə yeni fındıq bağı salınıb.

Bölgənin ən böyük fındıqçılıq rayonu olan Qəbələnin 20-ə yaxın kəndində əhali arasında geniş maarifləndirmə tədbirləri görülməklə yanaşı, kütləvi şəkildə fındıq tinglərinin əkilməsi işləri də həyata keçirilib.

Qeyd edək ki, 2017-ci ildə Qəbələdə mövcud olan 4678 hektar fındıq bağından 9 min 800 ton məhsul yığılıb. Rayonda fındıq emalı zavodunun fəaliyyət göstərməsi kəndliləri ildən-ilə fındıq bağlarını daha da genişləndirməyə və məhsuldarlığı artırmağa həvəsləndirir.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**"Qəbələ"**

# Meşə bağçılığına diqqət artırılıb

***Rayonumuzda meşələrin mühafizəsi və bərpası daim diqqət mərkəzində saxlanılır. Meşələrin mühafizəsi və bərpası müəssisəsi tərəfindən hər il yeni ağac tinglərinin yetişdirilməsi, meşə sahələrinin və meyvə bağlarının salınması işləri uğurla davam etdirilir.***



Zarağan meşəbəyiliklərinin ərazisindəki dövlət meşə fondunun torpaqlarında 32,3 hektar sahədə meşəbağ-aqrobağ sahəsi salınıb. Bunun 15,5 hektarını fındıq, 7,3 hektarını şabalıd, 8,7 hektarını qoz və 0,8 hektarını alma bağları təşkil edir. Bununla da rayon meşələrin mühafizəsi və bərpası müəssisənin nəzdindəki dövlət meşə fondunun bitki ilə örtülmüş torpaqları genişləndirilərək 33 min 400 hektara çatdırılıb.

Rayonun meşə fondunun torpaqlarında meyvə ağaclarından ibarət yeni bağların salınmasına xüsusi fikir verilir. Meyvə bağlarının salınmasında müəssisənin tingçilik təsərrüfatında yetişdirilən ağaclardan istifadə olunur. Yaz mövsümündə plana uyğun olaraq rayonun Bum, Vəndam, Yenikənd və

**"Qəbələ"**

# 2018-ci ilin iyun ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə

# YADDAŞ

***2018-ci ilin may ayına görə vergi ödəyiciləri tədiyəçisi olduqları***

● **Əlavə dəyər vergisi bəyannaməsini,**

● **Aksiz bəyannaməsini,**

● **Yol vergisi bəyannaməsini,**

● **Mədən vergisi bəyannaməsini,**

● **Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsini və**

● **Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini**

cari ilin **iyun ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

● **Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan Sadələşdirilmiş verginin bəyannaməsi** cari ilin **iyun ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

● **Muzdlu işlə əlaqədar 2018-ci ilin may ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi** cari ilin **iyun ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən 2-ci rüb üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

● **Xüsusi notariusların 2018-ci ilin may ayı üzrə hesabladığı gəlir vergisi** cari ilin **iyun ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (cari ilin 2-ci rübü üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

* * *

Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə **40 manat** məbləğində **maliyyə sanksiyası** tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün **0,1 faizi** məbləğində **faiz** tutulur (VM, 59).

**Hörmətli vergi ödəyiciləri!**

Siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi Sizə tövsiyə edirik.

**Azərbaycan Resoublikası**
**Vergilər Nazirliyi**